UOT. 341.24.047

# MİLLİ MARAQ VƏ MƏNAFELƏRİN QORUNMASI AZƏRBAYCAN-TÜRKİYƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞINDA

**K.T.BƏŞİROVA**
***Bakı Dövlət Universiteti***
***corasotr@yahoo.kom***

*Məqalədə Azərbaycanla Türkiyə arasında əməkdaşlığa dair ortaya qoyulan konsepsiyanın müxtəlif tərəflərini araşdırılır, bu prosesin hər iki xalq üçün mənafe baxımından tərəflərinin açmasına səy göstərilir, mövcud perspektiv imkanlar nəzərdən keçirilir.*

**Açar sözlər:** maraq, siyasət, beynəlxalq, dünya, əməkdaşlıq, millət, diplomatiya, müstəqillik

Müstəqilliyin əldə edilməsindən dərhal sonra Azərbaycan xarici siyasətinin qarşısında beynəlxalq əməkdaşlığın prinsiplərinin müəyyən edilməsi eləcə də bu zaman dövlətlərin hər birinin milli maraqlarının nəzərə alınması xüsusi bir vəzifə kimi meydana çıxmışdır. Belə şəraitdə Azərbaycan dövlətinin strateji maraqlarını respublikamızda kəsişən beynəlxalq mənafelərlə region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı ölkələrin maraqları ilə uzlaşdırmaq üçün silsilə tədbirlər düşünülüb həyata keçirilməli, respublikamızın maraqlarının qorunması üçün hərtərəfli ölçülüb-biçilmiş addımlar atılmalı idi. Bu baxımdan 1993-cü ildən sonra müdrik siyasi xadim Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində beynəlxalq münasibətlər müstəvisində Türkiyə və türkdilli ölkələrlə xarici siyasətin proritet istiqamətlərinin strategiyası müəyyənləşmiş, bütün amillər nəzərə alınaraq hər iki ölkənin milli maraqlarını təmin edən beynəlxalq əməkdaşlıq formalaşmışdır.

Beynəlxalq əməkdaşlıqda Türkiyə ilə münasibətlərin genişləndirilməsinin hətta respublikamızın daxili həyatına da təsiri böyük idi. Odur ki, 1993-cü ilin yayından başlayaraq Türkiyəyə münasibətdə xarici siyasət kursunda mühüm dəyişikliklər edildi. 1992-93-cü illərdə Azərbaycan-Türkiyə əlaqələrində etnik birlik amili ön plana çəkilmişdir. Bu isə həm etnik problemlərin meydana çıxmasına, həm də Azərbaycanın və Türkiyənin beynəlxalq aləmdəki nüfuzuna xələl gətirmiş, qərəzli antitürk və antiazərbaycan təbliğatının genişlənməsinə şərait yaratmışdır. Belə bir dövrdə hər iki ölkənin milli maraq və mənafelərinə bu amil zərbə vurmuşdur. Tarixçi alim Ə.Həsənov yazır: «1992-

93-cü illərdə milli mənafelərin gözlənilməməsinə əsasən aparılan türk birliyi ideyası Azərbaycan və Türkiyə ilə bəzi qonşu dövlətlər (Yunanıstan, İran, Rusiya və s.) arasında münasibətlərin pisləşməsinə və hətta kəskinləşməsinə səbəb olmuşdur. Azərbaycan hökuməti nümayəndələrinin mövcud beynəlxalq münasibətlər sisteminin reallıqlarına əsaslanmayan bəyanatları həm Azərbaycanı, həm də onun tarixi müttəfiqi olan Türkiyəni çətin vəziyyətə salmış, nəticə etibarilə onların beynəlxalq aləmdə təklənməsinə gətirib çıxarmışdır. Beləliklə, bütün regionda antitürk əhval-ruhiyyəsini daha da gücləndirən açıqlamalar nəinki türk dövlətlərinin birliyinə nail olmaq üçün əhəmiyyətli addımların atılmasına kömək etmiş, əksinə bu birliyə daha ağır zərbə endirmişdir. Buna görə də Heydər Əliyevin siyasi iradəsi tam etnik birlik üzərində qurulmuş Azərbaycan-Türkiyə münasibətlərini normal, sivilizasiyalı, qarşılıqlı, faydalı iqtisadi-siyasi əməkdaşlıq və tərəfdaşlıq münasibətləri üzərinə keçirmək üçün uzun müddət işləmək zərurəti qarşısında qaldı. Eyni zamanda region dövlətlərini və beynəlxalq qurumları iki ölkə arasındakı münasibətlərin sivil əlaqələri və iki müstəqil dövlətin beynəlxalq birgəyaşayış normalarına söykənən qarşılıqlı mənafe üzərində qurulduğuna inandırmaq üçün, təbii ki, bir neçə il ardıcıl iş aparmaq lazım gəlmişdir» (6, 29).

1993-cü ildən sonra dövlətçilik mənafelərini qorumaq bu sahədə qarşıya çıxan problemləri beynəlxalq aləmin dəstəyi ilə həll etmək üçün Azərbaycan diplomatasiyası qardaş Türkiyə Respublikası ilə birlikdə beynəlxalq təşkilatlarla sıx əlaqələr yaratmış, vahid mövqedən çıxış etmiş, beynəlxalq hüquq normaları və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq sahəsində də mühüm işlər görmüşdür. Xüsusən BMT, Avropa Şurası, ATƏT kimi beynəlxalq təşkilatlarda Azərbaycanla Türkiyə hərtərfli münasibətlərin qurulmasının yollarını və vasitələrini müəyyənləşdirmiş və praktikada həyat keçirmişlər. Hətta 1995-ci il oktyabr ayının 20-də BMT-nin 50 illik yubileyində iştirak etmək ücün ABŞ-a yola düşən Prezident Heydər Əliyev burada Azərbaycan neftinin ixrac yolları haqqında ABŞ prezidenti B. Klintonla geniş müzakirələr apararaq ciddi səylə milli maraqlarımızın təmin olunmasını əks etdirən neft marşrutlarının ixrac yollarını reallaşdırmışdır. Ölkəmizin başçısı Atatürk hava limanında həmin vaxt jurnalistlərə müsahibə verərək iki boru xətti barədə qərar qəbul olunduğunu – birincinin Gürcüstandan Qara dənizədək, o birisinin isə Rusiyadan Qara dənizə cəkiləcəyini bəyan etdi. Bu qərar Türkiyənin də maraqlarını təmin etdiyindən beynəlxalq aləmin dəstəyinə nail olmaqla, ölkələrimizin beynəlxalq əməkdaşlığının möhkəm bazasının yaradılmasına nail olundu. 1998-ci il aprelin 16-da Prezident sarayında Azərbaycan Prezidenti Heydər Əliyev BMT-nin Azərbaycandakı prezident əlaqələndiricisi Ercan Muradı qəbul edərkən Azərbaycan BMT əlaqələrinin genişləndiyindən söhbət acmış, bu beynəlxalq təşkilatda Azərbaycanla Türkiyənin bütün məsələlərdə eyni mövqedə olduğundan məmnun qaldığını bildirmişdir (2, 147).

Hətta 1992-ci il Xocalı soyqırımından dərhal sonra Türkiyə dövləti bu ədalətsizliyə dözməyərək dünya ictimaiyyətinə bəyanatla müraciət etdi. Beynəlxalq aləmdə əslində təklənmiş və heç bir dövlətdə beynəlxalq təşkilatlarda öz haqq işini səsləndirmək imkanı olmayan Azərbaycan Respublikasının Türkiyə ilə əməkdaşlığı və milli maraqlarının qorunmasına böyük ehtiyac vardır. İlk dəfə Türkiyənin dəstəyi ilə 1994-cü ilin noyabrında Avropa Şurası Parlament Assambleyası Azərbaycan-Ermənistan cəbhəsində atəşkəsin əldə edilməsini məmnunluq hissi ilə qarşılayaraq 1047 saylı qətnamə qəbul etmişdir. Burada göstərilirdi ki, bu münaqişə bütün regiona təhlükə yaradır və milli hüquqları tapdalayır».

Bütün bunlara baxmayaraq beynəlxalq səviyyədə erməni işğalçılığının bu və digər formada müdafiə olunması bəzən Azərbaycan və Türkiyəni ədalətsiz təkliflərlə qarşılaşdırırdı. Məsələn, Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ münaqişəsinə dair 1994-cü ildə verdiyi 1047 saylı qətnaməsinin 6-cı maddəsində göstərilirdi ki, «müharibə tərəflərini qaçqınların təcili əsasda evlərinə qayıtmasını təşkil etməyə və onu 1201 saylı tövsiyəsində dəstəkləndiyi kimi, azlıqların hüquqlarına hörmət etməyə çağırır və Azərbaycan və Türkiyəni onların Ermənistanla olan kommunikasiya vasitələrinin blokadasına dərhal son qoymağa təkidlə çağırır» (3, 204).

1992-ci il 24 mart tarixdə ATƏM-in Nazirlər Şurası belə bir razılığa gəlmişlər ki, Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezilklə həllinə kömək edəcək növbəti konfrans keçirilsin. 8 dekabr 1995-ci ildə ATƏT-in Minsk prosesi üzrə Nazirlər Şurasının həmin 5-ci görüşündə yekun qərar isə belə idi:

- ATƏT-in Minsk prosesinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında yeganə forum olmasını təsdiqləyirlər;
- Münaqişə tərəfləri 1994-cü ilin mayın 12-də bərqərar edilən atəşkəsə riayət etməyi davam etdirmək əzmlərini alqışlayır;
- Fəaliyyətdə olan sədrlə koordinasiyada təxirə salınmadan silahlı münaqişələrin dayandırılması haqqında siyasi sazişin əldə edilməsi yolunda Minsk konfransının həmsədrlərinin səylərini dəstəkləyir. Belə sazişin yerinə yetirilməsi bütün tərəflər üçün münaqişələrin əsas nəticələrini aradan qaldıracaq və qısa vaxt ərzində Minsk konfransını çağırmağa imkan yaradacaq.

Araşdırmalar göstərir ki, uzun tarixi dövrdə Ermənistan işğalçı siyasətini öz havadarlarının köməyi ilə həyata keçirmişdir. Həmin işğalçı siyasət bölgədə təkcə Azərbaycana deyil, həm də Türkiyənin milli dövlətçiliyinə, onların mənafelərinə zidd siyasətin meydana çıxması ilə müşayət edilmişdir. Hər iki ölkənin beynəlxalq aləmdə milli maraqlarının qorunmasındakı mövqe birliyi bu amillə bağlı idi. Digər tərəfdən

- Türkiyə Respublikası bu faktı qiymətləndirirdi ki, Ermənistan Qafqazda və bütün Avropada təhlükəsizliyə, əməkdaşlığa ziyan vuran, təhlükəli, perspektivsiz və avantürist xarici siyasət yeridir;

- Ermənistan, nəinki Azərbaycanın, hətta Türkiyənin BMT, ATƏT və dünya dövlətlərinin əksəriyyəti tərəfindən tanınmış sərhədlərini və ərazi bütövlüyünü tanımır və tanımaq istəmir, ona ərazi iddiası irəli sürür və bunu zorla həyata keçirmək istəyir;

- Dağlıq Qarabağ ətrafında baş verən problemlər Azərbaycan və Dağlıq Qarabağın erməni əhalisi arasında mövcud olan münaqişə deyil, Ermənistanın Azərbaycana olan ərazi iddiasının bilavasitə təzahürüdür. Bu iddia eyni tarixi milli köklərə malik türk dünyasına və Türkiyəyə qarşı da yönəlmişdir;

- Azərbaycan torpaqları işğal olunmuşdur və bu torpaqları geri qaytarmaq üçün Azərbaycan öz milli mənafelərini bütün beynəlxalq təşkilatlarda qorumalıdır;

- nəhayət, Türkiyənin də üzv olduğu bütün beynəlxalq təşkilatlar yəqin etdi ki, Qafqazda baş verən hadisələr, xüsusən Ermənistanın perspektivsiz və avantürist xarici siyasəti Avropada və bütün dünyada yeni qayda-qanunun bərqərar olması yolunda əsl maneəyə çevrilmişdir.

Azərbaycan – Türkiyə münasibətlərinin beynəlxalq səviyyədə inkişafı və bu münasibətlərdə milli maraqların saxlanılması məsələsi fikrimizcə 26 aprel 1998-ci ildə Trabzon yaxınlığında Dərinər su bəndinin inşasının təməlatma mərasimində iştirakdan sonra Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin birgə bəyannaməsində öz əksini tapmışdır. Bəyanatın müvafiq bölməsində deyilir.

«Prezidentlər bölgədə təhlükəsizliyin və sabitliyin təmin olunması sahəsində birgə səyləri həm regional səviyyədə, həm də daha geniş beynəlxalq səviyyədə daha da gücləndirməyin vacibliyini qeyd etmişlər. Onlar dövlət suverenliyinə, ərazi bütövlüyünə hörmət və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında təcavüzkar separatcılığa və terrorizmin hər hansı təzahürünə qarşı birgə mübarizəni fəallaşdırmaq əsasında bölgədə münaqişələri tez bir zamanda sülh yolu ilə aradan qaldırmağın zəruri olduğunu vurğulamışlar. Onlar «Dinc Qafqaz» bəyannaməsində ifadə etdikləri prinsiplərin həyata kecirilməsinə yönəldilmiş səyləri tamamilə dəstəkləyirlər».

1999-cu il noyabrın 18-də İstanbulda ATƏT-in Zirvə görüşünün keçirilməsində iştirak edən Prezident Heydər Əliyev burada dərin məzmunlu nitq söyləmişdir. Tarixə «İstanbul Zirvə görüşü» adl ilə düşmüş bu sammitin Türkiyədə keçirilməsi qardaş ölkənin bütün dünyanın siyasi həyatındakı yüksək nüfuzunun daha bir təsdiqi olmaqla yanaşı, Türkiyə Cümhuriyyəti, ümumən türkdilli xalqlar üçün çox böyük hadisə idi. Zirvə görüşünün başlıca sənədi Avropa Təhlükəsizliyi xartiyası idi. Bu sənəd ATƏT-in tarixində 3-cü (Helsinki yekun aktı, 1975, Paris Xartiyası 1990) ən mühüm sənəddir. Xartiya altı fəsildən, bir operativ sənəddən ibarətdir. Burada göstərilirdi ki, ölkələr sülhün və təhlükəsizliyin qorunub saxlanmasını BMT Təhlükəsizlik Şurasının başlıca məsuliyyəti kimi tanımış və dövlətlərin ərazi bütövlüyünə, siyasi müstəqilliyinə qarşı zor işlətməmək, hədələməmək məsələsinə dair öhdəliklər-

də daxil olmaqla, BMT Nizamnaməsinə müvafiq surətdə dövlətlərin hüquq və öhdəliklərini bir daha təsdiqləmişlər. «İstanbul xartiyası» təhlükəsizliyin hərbi-siyasi cəhətini ATƏT-in hərtərəfli təhlükəsizlik konsepsiyasının başlıca ünsürü kimi təsbit etmişdir. Belə ki, sənəddə Avropa regionunda hələ də qalmaqda olan münaqişə ocaqlarından üzv ölkələrin dərin narahatlığı ifadə edilir. Daimi Şuraya bu əsasda təcili qərarların qəbul edilməsi tapşırılırdı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də burada ayrıca bənd kimi Azərbaycan və Türkiyə rəsmilərinin səyi nəticəsində öz əksini tapmış, Azərbaycanın pozulmuş ərazi bütövlüyünün bərpa olunması irəli sürülmüşdür. Hər iki qardaş ölkənin rəsmiləri məhz bu sammitdə Cənubi Qafqazda sülh və təhlükəsizliyin yaranması ücün paktın hazırlanması təklifini etmişlər. Lakin təəssüflər olsun ki, bu məsələdə də ikili standartlar problemin həllinə imkan verməmişdir (5, 412-413).

Azərbaycan – Türkiyə münasibətlərinin beynəlxalq səviyyədə təmsil olunması və vahid milli maraqların həyata kecirilməsi ümummilli lider Heydər Əliyevin milli birlik, həmrəylik, ümummilli ideyalar ətrafındakı ardıcıl və məqsədyönlü fəaliyyəti hər iki ölkənin dünyaya səpələnmiş nümayəndələrinin qarşısına mühüm vəzifələr qoymuşdur. Bu baxımdan 2001-ci il noyabr ayında Bakıda yüksək səviyyədə Dünya azərbaycanlılarının I Qurultayının kecirilməsi və burada türk diaspor təşkilatlarının geniş miqyasda təmsil olunması cox vacib tarixi hadisə idi. Dilimizin və mədəniyyətimizin, mütərəqqi adət-ənənələrimizin və tariximizin yaşadılması kimi ideyaları ilk dəfə Heydər Əliyev hər iki ölkənin ictimai qurumlarının qarşısında məqsəd kimi qoymuşdur. Bu isə bütün dünyada Azərbaycan və türk diasporlarının fəaliyyətində, onların həmrəyliyinin daha da gücləndirilməsində geniş imkanlar açmışdır.

Azərbaycanla Türkiyənin beynəlxalq əməkdaşlığının prinsipləri həm də bu təşkilatlarda ölkələri təmsil edən nümayəndələr tərəfindən həyata keçirilirdi. Azərbaycan Prezidenti Heydər Əliyev 2000-ci il aprelin 25-də Prezident sarayında Türkiyənin NATO-dakı daimi nümayəndəsi Onur Öyməni qəbul edərkən demişdir: «İndi Türkiyənin imkanları var. NATO-da xüsusi bir səfir saxlasın. Səfir orada fəaliyyət göstərsin. Türkiyə həm də NATO-nun tam üzvüdür. Biz isə «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edirik. Ancaq təcrübədə belə olubdur. Azərbaycan öz dövlət müstəqilliyini alandan sonra hansı ölkədə bir diplomatik nümayəndəlik yaratmağa çalışırsa, səfirlik açmaq istəyirsə, birinci növbədə Türkiyənin səfirliyinə gedibdir, Türkiyənin səfirliyində yerləşibdir. Ondan sonra özünə bir yer tapıbdır. Ancaq NATO-da bizim işlərimizi yenə də sizdən xahiş edəcəyik ki, aparasınız. Bilirsiniz ki, bizim oraya vaxtaşırı nümayəndələrimiz də gəlirlər» (1).

Onu da qeyd edək ki 6 dekabr 2002-ci ildə BMT-nin Baş Assambleyasının iclası zamanı müzakirə ediləcək «BMT-ATƏT arasında əməkdaşlıq haqqında» «Qətnamə» layihəsinə Azərbaycan tərəfinin düzəlişinin dəstəklənməsi ilə əlaqədar xarici işlər naziri V.Quliyev Türkiyənin xarici işlər nazir V.Yakişa

məktub göndərmişdir. Bu düzəliş Azərbaycanın ərazi bütövlüyünün tanınmasını beynəlxalq normalar cərcivəsində dövlətlərə bildirir və Azərbaycana Ermənistan tərəfindən edilən təcavüzün qarşısının alınmasında əməli işlərin görülməsini əks etdiridi. 20 dekabr 2002-ci ildə BMT-nin Baş Assambleyasının iclası zamanı «BMT-ATƏT arasında əməkdaşlıq haqqında» Qətnamə layihəsinə Azərbaycanın təklif etdiyi bu düzəlişi Türkiyə tərəfi dəstəkləmişdir. Bu addım da beynəlxalq əməkdaşlıqda milli münasibətlərimizin möhkəmlənməsində mühüm amil idi (4).

Beləliklə, Azərbaycan və Türkiyə arasındakı əməkdaşlığın beynəlxalq səviyyəsi və bu əməkdaşlıqda milli maraqların qorunub saxlanmasına yönəlmiş siyasət XXI əsrin başlanğıcında tarixi zərurətə çevrilmişdir. Odur ki, iki strateji müttəfiq ölkələr beynəlxalq səhnədə birgə fəaliyyət göstərir, vahid mövqe nümayiş etdirirlər. Araşdırmalardan da göründüyü kimi, respublikamızın xarici siyasətinin ən başlıca prioritetlərindən biri həm regional planda, həm də dünya miqyasında Azərbaycanın maraqlarına ziyan gətirməyən tərzdə Ermənistan-Azərbaycan münaqişəsinin optimal həllinin axtarışından ibarətdir.

Beləliklə, Azərbaycan və Türkiyə arasında ümumi strateji milli maraqların mövcudluğu, regiondakı vəziyyətimizin geostrateji bənzərliyi, həmcinin bir cox regional və beynəlxalq məsələlərin həllinə olan baxışlarda prinsipial ayrılıqların olmaması ölkələrimizin ideal müttəfiqlik etməyə və beynəlxalq aləmdə milli maraqların vahid mövqedən cıxış edərək təmin etməyə sövq edən ən başlıcı məsələdir. Araşdırılan bölmədən məlum oldu ki, Türkiyənin dünya siyasətindəki yerindən, rolundan və nüfuzundan maksimum istifadə edilməsi imkanlarının mövcudluğu onun bir cox beynəlxalq təşkilatlardakı güclü və nüfuzlu mövqeyini eyni zamanda Amerika Birləşmiş Ştatları və digər Qərbi Avropa dövlətləri ilə sıx müttəfiqlik əlaqələri müstəqilliyimizin möhkəmləndirilməsi və ölkəmizin problemlərinin beynəlxalq aləmə cıxarılması üçün vacib olan faktlardandır. Bu illər ərzində ümummilli lider Heydər Əliyevin siyasi diplomatik fəaliyyətinin prinsipləri bir daha bütün turk dünyasinə sübut etdi ki, türk dünyasına mənsub olan ölkələrin siyasi və iqtisadi gücünün birləşdirilməsi, onların dünya siyasətində yerinin və rolunun artırılması məsələlərinə yardımcı olan ən mühüm amildir.

Azərbaycan Respublikası qardaş Türkiyə dövləti ilə beynəlxalq əməkdaşlıqda milli mənafelərin qorunmasına və onun təmin olunmasına konkret əməli işlər həyata kecirmiş, dünya siyasətinin aparıcı ölkələrinin mövqeyindəki münasibətə həlledici təsir göstərmişdir.

Araşdırmalar göstərmişdir ki, müstəqilliyə nail olduğumuz ilk vaxtlar Azərbaycan-Türkiyə əlaqələri BMT, ATƏT, AŞ, İKT və digər beynəlxalq təşkilatların nizamnamələrinin prinsiplərinə üyğun inkişaf etmiş, bərabərlik, qarşılıqlı inam, bir-birilərinin daxili işlərinə qarışmamaq, ərazi bütövlüyünə və suverenliyinə hörmət etmək prinsiplərinə əsaslanmışdır.Bu da hərtərəfli beynəlxalq siyasi əməkdaşlığın inkişaf etdirilməsinin təmin olunmasında cox

ciddi dönüş yaratmışdır.

Hər iki strateji müttəfiq ölkə XX əsrin sonu XXI əsrin əvvəllərində öz milli maraqlarının təmin olunması və dövlətcilik prinsiplərinin qorunub saxlanmasında beynəlxalq təcrübəyə və mövcud beynəlxalq hüquq normalarının tətbiqinə əsaslanmışdır. Bu baxımdan da, reğionda bütün layihələrin həyata keçirilməsi və təhlükəsizliyin təmin olunması proseslərində Türkiyə bu gün də liderlik missiyasını həyata kecirməkdədir

**ƏDƏBİYYAT**


1. Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin NATO-da daimi nümayəndəsini qəbul etmişdir. «Azərbaycan» qəzeti, 2000, 26 aprel, №108.
2. Azərbaycan BMT ailəsində. Bakı, Azərnəşr, 2000, 342 s.
3. Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ münaqişəsinə dair qətnaməsi 1047 (1994). Avropa Şurası və Azərbaycan. Bakı: OSKAR, 2001, 239 s.
4. "Azərbaycan-Beynəlxalq təşkilatlar" bölümünə aid tarixi arayışlar. İnternet saytı.
5. Heydər Əliyev Müstəqilliyimiz əbədidir. II kitab, Bakı, Azərnəşr, 1999, 614 s.
6. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, Azərnəşr, 1998, 317 s.


## НАЦИОНАЛЬНЫЙ ИНТЕРЕС И ЗАЩИТА ИНТЕРЕСОВ В АЗЕРБАЙДЖАНО-ТУРЕЦКОМ МЕЖДУНАРОДНОМ СОТРУДНИЧЕСТВЕ

**К.Т.БЕШИРОВА**

**РЕЗЮМЕ**

Статья анализирует процессы между Азербайджаном и Турцией на пороге XXI столетия в контексте международного сотрудничества государств и принципов этого сотрудничества. Дипломатические действия, выполнили, в контексте региональной и международной сущности организаций положительные результаты, на основе конкретных фактов. Политика международной энергии, также сделанной проанализирована на основе решений, вынул региональные и международные организации.

**Ключевые слова:** интерес, политика, международность, мир, сотрудничество, нация, дипломатия, независимость

## NATIONAL INTEREST AND PROTECTION OF OUR INTERESTS IN THE AZERBAIJAN-TURKEY INTERNATIONAL COLLABORATION

**K.T.BASHIROVA**

**SUMMARY**

The article analyses processes between Azerbaijan and Turkey in the threshold of the XXI century in the context of international collaboration of states, and studies principles of this collaboration. International energy policy is analysed on the basis of decisions of regional and international organizations.

**Key words:** interest, policy, international, world, cooperation, nation, diplomacy, independency